# BİZİM EVİ TAPA BİLMƏDİM...

Mənim gözəl nənəm, sən olmayandan sonra yuxuma tez-tez gəlirdin. Birgə yürüyürük. Sual vermirəm, çünki, bilirəm ki, Şuşadayam və "bizə" gedirik. Lakin "bizə" çatmırıq və səni itirirəm...

Məni ilk dəfə 7 yaşımda Şuşaya aparmışdın. Cıdır düzündə əlimdən tutub harasa gedirdik. Dedim:

-Nənə, Südabə xalagilə gedirik?

-Yox, qızım "bizə" gedirik.

Yadımda deyil "bizə" deyəndə hansı hissləri keçirtdim. Deyəsən, sevinmədim, çünki, sənin baxışların kədərli, həyəcanla dolu idi, əllərin də, deyəsən, əsirdi.



*Kəmalə Əsgərova*

Şuşanın qara və boz rəngdə olan, çay daşları ilə düzülmüş köndələn küçələri ilə endik və bir yerə çatdıq. Sən əlimi buraxdın. Darvazanın hər iki tərəfi dəmir məhəccər ilə tutulmuşdu. Qıraqda bir daşın üstündə oturdun. Kəlağayıya bürünmüş bədənin titrəyirdi. Sakit və hönkür-hönkür ağlayırdın. Heç yerə baxmırdın. Məhəccərin arxasında gözəl bir mənzərə açılırdı. Yaşıl çəmənlik və nəhəng yaşıl ağaclar. Bir az içəridə ikimərtəbəli boz daşdan tikilmiş ev (Nənəm sonralar dedi ki, 27 pəncərəsi var idi). Ancaq mən sadəcə yaşıllıq içində, tam görünməyən bir uzun evi xatırlayıram. Və bu an balaca bir oğlan uşağı həyətin o tərəfindən gəlib məhəccərdən gözlərini bərəldərək, aqressiv şəkildə qışqıraraq: "Bu bizim evdi, get buradan!"- dedi. Mən bərk qorxdum, kədər və qəm içində olan nənəmə tərəf baxdım. Hardansa cəsarət tapıb göz yaşlarımı boğaraq: "Sən get, bu bizim evdir" - dedim. Nənəm kəlağayının ucları ilə göz yaşlarını silib, ayağa qalxdı. Əlini mənə uzatdı, qaçıb əlindən tutdum. Artıq heç nə xatırlamıram. Sonra bildim ki, "bizim" ev artıq uşaq evi imiş. Bolşeviklər inqilabdan sonra gəlib evdə olan qiymətli əşyaları alıb apardılar, "bunlar muzeydə olmalıdır" - dedilər. Evi də müsadirə etdilər.

Mənim əziz nənəm, sən hər il məni yayda gözəl Şuşaya aparmaq istəyirdin. Mən isə getmirdim. Səbəb olaraq isə qardaşım və dayım qızının çox ərkəsöyün və nadinc olduqlarını gətirirdim. Əslində başqa bir səbəb var idi. "Bizim" evdə o oğlan uşağının qorxunc baxışı və bağırtısı: "Get buradan, bura bizim evdi".

Bəlkə sən mənə yaşadığın faciələrdən danışmaq istəyirdin. Ürəyini boşaltmaq istəyirdin. Axı mən sənin ən böyük nəvən idim. Lakin mən o vaxt bunları başa düşmürdüm. Sən heç kimə yaşadığın faciələrindən danışmırdın, əvəzində qəmli mahnılar oxuyurdun, gözlərin yaşla dolurdu. Şuşanın gözəlliklərindən tez-tez danışırdın: "Ərim gəldi" dağı, Qala, Cuhur, Qurdlar, Seyidlər məhəllələri haqqında, həyətinizdə olan iki quyudan bəhs edirdin.

Dünyanın ən gözəl, sevimli anası, nənəsi, "mama qızı"! Ruhun şad olsun! Şuşada artıq sərbəst gəzirik. Mən isə bizim evi tapa bilmədim. Bağışla. Hətta kəlağayını da götürdüm ki, ona bürünüb sənin oturduğun daşın üstündə oturaraq, hamımızın əvəzinə hönkür-hönkür ağlayım, sonuncu dəfə ağlayım bizim Şuşada...

**Kəmalə Əsgərova,**
*İngilis dili və ədəbiyyatı departamentinin müəllimi*